

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 38 (22.949)

*24 fevral 2018-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də “Boeing Commmercial Airplanes” şirkətinin prezidenti və baş icraçı direktoru Kevin Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə “Boing” şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini və bu şirkətin istehsal etdiyi 20-yə yaxın təyyarənin Azərbaycan mülki aviasiyası tərəfindən alındığını vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanda nəqliyyat və infrastruktur sahəsində böyük nailiyyətlərin əldə edildiyini bildirərək, son illər ölkəmizdə 6-sı beynəlxalq aeroport olmaqla 7 yeni aeroportun inşa edildiyini, ən müasir səviyyədə yükdaşıma və nəqliyyat təyyarələrinin fəaliyyət göstərdiyini vurğulayıb. Eyni zamanda Prezident İlham Əliyev Azərbaycanda bütün növ müasir gəmilər istehsal edən gəmiqayırma zavodu, müasir dəmir yolu infrastrukturu yaradıldığını və avtomobil yollarının inşa edildiyini deyib. Prezident İlham Əliyev Azərbaycanın “Boing” şirkəti ilə əməkdaşlığının bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib.

Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin bir çox sahələri əhatə etdiyi bildirilib və əlaqələrimizin uğurla inkişaf etdiyi vurğulanıb.



## B.Ə.Əsgərovun Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəhruz Əli oğlu Əsgərov Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 fevral 2018-ci il*

## “Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli 151-04/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq gənc istedadlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı”na adları yazılmış gənc istedadlar üçün xüsusi aylıq təqaüdün məbləği 2018-ci il martın 1-dən artırılaraq 150 manat müəyyən edilsin.

2. “Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli 151-04/S nömrəli Sərəncamının 2-ci hissəsində “120” rəqəmləri müvafiq olaraq “150” rəqəmləri ilə əvəz edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 fevral 2018-ci il*

## “Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 iyul tarixli 203-01/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Fəxri adlara görə aylıq təqaüdün məbləği 2018-ci il martın 1-dən artırılaraq 50 manat müəyyən edilsin.

2. “Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 iyul tarixli 203-01/S nömrəli Sərəncamının 1-ci hissəsində “30 manat” sözləri müvafiq olaraq “50 manat” sözləri ilə əvəz edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 23 fevral 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub





Fevralın 23-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının orden və medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları ölkəmizin fəxri adlarına, yüksək orden və medallarına layiq görülmələri münasibətilə təbrik edərək demişdir: Ölkəmizin sosial-iqtisadi inkişafının təməlində ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu dayanır. O ölkə inkişaf edir ki, orada bütün sahələrin inkişafı təmin olunsun. Bu gün ulu öndərin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf edir. Müxtəlif sahələrdə çalışan insanlar isə ölkəmizin inkişafına öz töhfələrini verirlər.

Ali Məclisin Sədri demişdir: Hər bir müstəqil ölkənin ən qiymətli sərvəti onun vətənpərvər insanlarıdır. Çünki vətənpərvər insanları olan ölkənin müstəqilliyi və gələcəyi də etibarlı olur. Əgər bu gün ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutubsa, onda müxtəlif sahələrdə çalışan, bu inkişafda payı olan insanların əməyi də qiymətləndirilməlidir. Əməyi qiymətləndirilən, dövlət mükafatlarına layiq görülən insanların fəaliyyəti isə çalışdıqları kollektivlər üçün nümunədir.

Ali Məclisin Sədri təltif olunanlara təşəkkür etmiş, onlara işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden və medallarını, Naxçıvan Muxtar Respublikasının fəxri adının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim etmişdir.

Təltif olunanlardan Arif Qasımov, Aydın Quliyev, Şahid İbrahimov, Faiq Ağayev, Sənan Novruzov, Asəf Məmmədov, Səhət Həbibbəyli, Sucaxan Novruzov, Teymur Rzayev və Səxavət Salmanov əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq edərək demişlər ki, bu gün Naxçıvan

*Ardı 2-ci səhifədə*



Muxtar Respublikasında bütün sahələr inkişaf etdirilir. Yeni sosial obyektlərin, inzibati binaların, müasir yolların istifadəyə verilməsi insanların rahat yaşayışını təmin edib. Eyni zamanda hər bir sahədə çalışanlar üçün hərtərəfli iş şəraiti yaradılıb. Təltif olunanlar bundan sonra da səylə çalışacaqlarına və qarşıdan gələn Prezident seçkilərində ulu öndər Heydər Əliyevin siyasi xəttini dəstəkləyəcəklərinə söz vermişlər.

Naxçıvan Muxtar Respublikasının "Əməkdar mühəndisi" fəxri adı ilə təltif olunan Mübariz Məmmədov minnətdarlıq edərək demişdir: Dövlət mükafatı ilə təltif olunmağım çalışdığım kollektivin əməyinə verilən yüksək qiymət və böyük etimaddır. Mən bu gün çox xoşbəxtəm. Çünki bütün ailə üzvlərim yüksək dövlət etimadına layiq görülüb. Hər iki övladım muxtar respublikada yaradılan təhsil şəraitindən bəhrələnərək ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb. Onların Ali Məclis Sədri ilə görüşü bir valideyn kimi məni çox qürurlandırdı. Bundan başqa həyat yoldaşım "İlin ən yaxşı müəllimi" adına layiq görülüb. Həm çalışdığım kollektiv, həm də ailəm adından söz verirəm ki, göstərilən yüksək etimadı işimizlə doğruldacaq, bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəyik.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Bəşər tarixinin qanlı səhifəsi – Xocalı soyqırımı

*Bəşəriyyət tarixinin ən qanlı hadisəsi və XX əsrin böyük faciəsi olan Xocalı soyqırımının törədilməsindən 26 il ötür. Azərbaycanın Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları tərəfindən yerlə-yeksan edilmişdir. Erməni şovinistlərinin qəddarlıqla həyata keçirdiyi bu amansız və qanlı cinayətdə Xocalı şəhərinin sakinləri son anadək özlərini əsl qəhrəman kimi aparmış, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməmişlər. Ümummilli liderimiz Heydər Əliyev demişdir:* ***"Xocalı faciəsi bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş bir təzahürüdür".***

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Qarabağdakı yeganə hava limanı da məhz burada yerləşirdi. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Dağlıq Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindəndir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də azərbaycanlılara məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal ediləndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdır.

Xocalı faciəsinə aparan yol hələ XX əsrin əvvəllərindən başlamışdı. Bu yaşayış məntəqəsinin azərbaycanlı əhalisi bir əsrdə 3 dəfə qırğınlara məruz qalmışdır. Xocalı birinci dəfə 1905-ci ildə, sonra isə 1918-ci ildə yandırılmışdır. Nəhayət, 1992-ci ildə Xocalıda üçüncü dəfə daha qanlı, daha dəhşətli faciə törədilmişdir. Xocalının işğalı düşmənin əvvəlcədən hazırladığı plan üzrə baş tutmuşdu.

Xocalı hələ 1991-ci ilin oktyabr ayından blokada vəziyyətinə alınmışdı. 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin həsabına ermənilərin əlinə keçdi. Hər gün ağır texnikadan atəşə tutulan Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Əsas qüvvələr isə Xankəndidə və Əsgəran istiqamətində yerləşdirilmişdi. Lakin bütün çətinliklərə, silah-sursat çatışmazlığına, canlı qüvvənin azlığına baxmayaraq, qəhrəman Xocalı döyüşçüləri düşmənə qarşı inadlı mübarizə aparırdılar. Şəhərlə avtomobil əlaqəsi tamamilə kəsildiyindən yeganə nəqliyyat vasitəsi olaraq vertolyotdan istifadə edilirdi. Bura sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun ermənilər tərəfindən vurulması və nəticədə, 40 nəfərin həlak olmasından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən isə şəhərə elektrik enerjisi verilmirdi. Xocalı yalnız əhalinin və müdafiəçilərin qəhrəmanlığı sayəsində yaşayır, müdafiə olunurdu.

Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal planı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təşkil olunmuş, Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı da 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişdilər. Bu kütləvi qırğın nəticəsində 613 əliyalın dinc sakin öldürülmüşdü ki, onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i qoca idi. 1275 dinc sakin isə əsir götürülmüşdü. Onların 150-nin taleyindən hələ də heç bir xəbər yoxdur. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmişdir. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən isə 76-sı uşaq idi.

Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırmışlar. Fransadan olan jurnalist Jan-İv Yunet yazır: "...Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə həlak olmuş dinc əhalinin – qadınların, kişilərin, qocaların və Xocalı müdafiəçilərinin meyitlərini gördük. Bizə helikopter verdilər, biz quş uçuşu hündürlüyündən Xocalı ətrafında nə gördüksə, hamısını çəkirdik. Bu, dəhşətli mənzərə idi. Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı barədə çox eşitmişəm, lakin ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini öldürərək onları geridə qoyublar". İngiltərəli jurnalist Rori Patriks isə qeyd edir ki, "Xocalıdakı faciənin miqyasını dünya ictimaiyyətinə anlatmaq çox çətindir. Biz jurnalistlər helikopterlə çətinliklə də olsa, ermənilərin məskunlaşdığı Naxçıvanik kəndinin yaxınlığına gələ bildik. Burada onlarla eybəcər hala salınmış meyit gördük. Onlar Xocalını müdafiə edən döyüşçülər deyildi, bu, Azərbaycan şəhərinin dinc əhalisi – qatillərin güllələdikləri uşaqlar, qadınlar, qocalar idi".

Soyqırımının şahidi olmuş rus zabiti, polkovnik V.R.Saveleyev hadisə ilə əlaqədar hazırladığı arayışda yazırdı: "İnsanların gülədən keçirilmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Yazdığımız məxfi arayışı Kremlə və Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinə göndərdim və "oxuyun, görün biz rus zabitlərinin şərəfi necə ləkələndi", – dedim".

Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Xocalıda istifadəsi qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmişdir. Bu məlumat Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin açıqlamasında da öz əksini tapmışdır. Bütün bu faktlar Ermənistanın Cenevrə Konvensiyasının protokollarını pozaraq dinc sakinlərə qarşı soyqırımı həyata keçirdiyini təsdiqləyir.

Təəssüflər olsun ki, həmin dövrdə Azərbaycana rəhbərlik edənlər Xocalı soyqırımına biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti ört-basdır etməyə çalışmışlar. Yalnız həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17[00]-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan xalqı Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla yad edir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl iş aparılır. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülüb, xarici dillərdə kitablar nəşr olunub, filmlər nümayiş etdirilib, Xocalı mövzusu müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilib, bununla bağlı internet saytları yaradılıb. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi atılan mühüm addımlardandır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınıb. Bu istiqamətdə aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radiolarda verilişlər hazırlanır.

Bu gün Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər. 2010-cu ildə İslam Konfransı Təşkilatına üzv ölkələrin parlamentləri "Xocalıya ədalət" kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir. Qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı kütləvi soyqırımı" və "İnsanlığa qarşı cinayət" kimi qiymətləndirilmişdir. Həmçinin dünyanın 15 aparıcı ölkəsinin parlamentləri Xocalı soyqırımını tanımış, Amerika Birləşmiş Ştatlarının 22 ştatının qanunverici orqanı Xocalı faciəsinin soyqırımı kimi tanınması barədə qərar çıxarmışdır.

Bu gün Azərbaycan Dağlıq Qarabağ probleminin ədalətli və sülh yolu ilə həll olunması üçün bütün imkanlarını səfərbər edib. Artıq müstəqil dövlətimiz elə bir səviyyəyə gəlib çatıb ki, Azərbaycanla Ermənistanı heç bir sahədə müqayisə etmək mümkün deyil. Xüsusilə ordu quruculuğu sahəsində atılmış böyük addımlar ölkəmizin hərbi qüdrətini dəfələrlə artırıb. Silahlı Qüvvələrimiz uğrunda qan tökülmüş torpaqlarımızın işğaldan azad edilməsinə, bu tarixi ədalətsizliyin bərpasına hər zaman hazır və qadirdir. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması Xocalı şəhidlərinə, eləcə də torpaq uğrunda canını fəda etmiş bütün Vətən övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır.

**"Şərq qapısı"**

## Elmi konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsində Xocalı soyqırımının 26-cı ildönümünə həsr olunan "Xocalı faciəsi: səbəbləri, nəticələri və dərsləri" mövzusunda elmi konfrans keçirilib.*

Əvvəlcə faciədə vəhşicəsinə qətlə yetirilən həmvətənlərimizin və Xocalı şəhərinin müdafiəsində iştirak edənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımının dünya tarixində misligörünməmiş bir faciə olduğunu bildirib. Akademik faciənin səbəblərindən və bu tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ümummilli lider Heydər Əliyevin, eyni zamanda ölkə başçısı İlham Əliyevin həyata keçirdiyi tədbirlərdən danışıb.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Yaşar Rəhimov "Xocalı faciəsinə gedən yol", həmin institutun şöbə müdirləri, tarix üzrə fəlsəfə doktorları, dosentlər – Emin Şıxəliyev "Xocalı faciəsi azərbaycanlılara qarşı törədilən soyqırımların tərkib hissəsi kimi", Zeynəb Quliyeva "Xocalı faciəsinin azərbaycanlıların milli şüuruna təsiri, nəticə və dərsləri" və filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Xocalı faciəsi bədii ədəbiyyatda" mövzusunda məruzələrlə çıxış ediblər.

Konfransda Xocalı soyqırımını əks etdirən kitab sərgisi də nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Xocalı faciəsinə həsr olunmuş internet aksiya

*Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar internet aksiya keçirilib.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu qanlı faciənin tarixinə nəzər salaraq erməni vəhşiliyindən, Xocalıda soydaşlarımızın başına gətirilən müsibətlərdən danışıb. Vurğulanıb ki, bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımı bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

Universitet Tələbə Gənclər Təşkilatının sədri Zümrüd Səfərova internet aksiyanın keçirilməsinin məqsədi haqqında məlumat verib.

Sonra aksiyaya start verilib. İki saat davam edən aksiyada yerli və xarici tələbələrin iştirakı ilə dünyanın 55 ən tanınmış ali məktəbinin elektron ünvanına ingilis, fransız, alman, rus və fars dillərində Xocalı həqiqətlərini əks etdirən məlumatlar göndərilib.

**Nərmin CABBAROVA**

*Ümummilli liderimiz Heydər Əliyevin 1992-ci il 24 fevral tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaradılmışdır. O dövrdə Ali Məclisin Sədri işləyən ulu öndərimiz muxtar respublikamızın iqtisadi maraqlarının və mənafelərinin qorunması, səmərəli xarici iqtisadi fəaliyyətin təşkili, idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin yaradılması, sərhədlərimizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər həyata keçirmişdir. İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsinin qurulması, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması blokadada olan Naxçıvanın böhranlı vəziyyətdən çıxarılmasında, gömrük və ticarət əlaqələrinin inkişafında mühüm rol oynamışdır.*

## Muxtar respublikanın gömrük orqanları hərtərəfli qayğı ilə əhatə olunub



Ötən dövrdə muxtar respublika gömrük sistemi böyük inkişaf yolu keçmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər öz bəhrəsini vermiş, qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi xeyli genişlənmişdir. Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq status verilmiş, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrinin iş rejimi 24 saata, Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsinin iş rejimi isə 12 saata çatdırılmışdır. Ötən ilin dekabr ayında Ali Məclis Sədrinin İran İslam Respublikasına rəsmi səfəri zamanı iqtisadi münasibətlərin və ticarət əlaqələrinin genişləndirilməsi məsələləri də geniş müzakirə olunmuş, Şahtaxtı-Poldəşt gömrük sərhəd-buraxılış məntəqəsinin iş rejiminin əlavə 4 saat artırılaraq 16 saata çatdırılması qərara alınmışdır.

Dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə muxtar respublika gömrük sistemində müasir infrastruktur və möhkəm maddi-texniki baza formalaşdırılmışdır. 2007-ci ildə Culfa, 2009-cu ildə Şahtaxtı, 2012-ci ildə isə Naxçıvan Şəhər Gömrük idarələri üçün müasir gömrük kompleksləri, 2014-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün yeni inzibati bina, 2015-ci ildə "Naxçıvan terminal kompleks" Birliyi üçün inzibati bina və anbar kompleksinin istifadəyə verilməsi, eləcə də gömrük laboratoriyasının yaradılması xidmətin müasir tələblər səviyyəsində qurulmasına səbəb olmuşdur. Hazırda muxtar respublika gömrük sistemində ən müasir standartlar tətbiq olunur. Culfa, Şahtaxtı və Sədərək sərhəd-keçid məntəqələrində quraşdırılan rentgen-nəzarət qurğuları muxtar respublikaya bütün istiqamətlərdən gələn yüklərə və yük nəqliyyat vasitələrinə gömrük nəzarətini daha dolğun və sürətli şəkildə həyata keçirməyə imkan verir.

Gömrük sərhəd-buraxılış məntəqələrində tətbiq olunan "Sərhəd keçmə vaxtının ölçülməsi" sistemi vasitəsi ilə mal və nəqliyyat vasitələrinin sərhəddən keçmə və buraxılış vaxtlarının qeydiyyatı avtomatik qaydada aparılır. Bu isə sərhəd keçmədən buraxılışa qədər olan müddəti müəyyən etməyə, gömrük prosedurlarının yerinə yetirilməsini, mal və nəqliyyat vasitələrinin hərəkətini ləngidən səbəbləri aşkarlayıb aradan qaldırmağa imkan verir.

Komitənin "Hədəf mərkəzi"ndə muxtar respublika ərazisində malların və nəqliyyat vasitələrinin hərəkətinin izlənilməsi, gömrük orqanlarında quraşdırılmış müasirtipli müşahidə kameralarının imkanlarından istifadə olunmaqla iş prosesinə 24 saat nəzarət edilməsi, gömrük əməliyyatlarının monitorinqinin aparılması və riskin idarə olunması sistemi əsasında effektiv gömrük nəzarəti həyata keçirilir. Sərhəd gömrük-buraxılış məntəqələrindən muxtar respublika ərazisinə idxal və ya tranzit rejimində daxil olan yüklü nəqliyyat vasitələri xüsusi mexaniki kilidlə – GPS sistemi ilə təmin olunur, müəyyən edilmiş marşrut üzrə təyinat gömrük orqanına vaxtlı-vaxtında çatdırılma nəzarətdə saxlanılır. Eyni zamanda sərhəd-buraxılış məntəqələrində quraşdırılmış "Gömrük" köşkləri üç dildə – Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Bu məlumat köşklərin vasitəsilə vətəndaşlar sadələşdirilmiş elektron bəyannaməni doldurur, həmçinin gömrük qanunvericilik bazası və səyahətçilər üçün gömrük nəzarəti ilə bağlı qaydalarla tanış olurlar.

Gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, şəffaflığın təmin edilməsi, gömrük-biznes əməkdaşlığının artırılması məqsədilə informasiya texnologiyalarının tətbiqi və elektron xidmətlərin arealı ilbəil genişləndirilir. Sərhədi keçən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti vahid elektron sistem halında həyata keçirilir. Belə ki, gömrük bəyannamələri və digər mal-müşayiət sənədləri gömrük orqanlarına elektron imza vasitələri ilə imzalanmaqla tam elektron mühitdə təqdim edilir. İdxal olunan malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi ilə bağlı daha bir yenilik isə ilkin bəyanetmə elektron xidmətidir. Bu yeniliyin sahibkarlar üçün əsas üstünlüyü ondan ibarətdir ki, gömrük orqanları artıq idxal və ixrac olunan mallar barədə qabaqcadan məlumat əldə edir və bununla da, sərhəd-buraxılış məntəqələrində bəyan edilən mal və nəqliyyat vasitələrinin daha sürətli keçidi təmin olunur.

Muxtar respublikada gömrük nəzarəti ilə yanaşı, gətirilən mal və nəqliyyat vasitələrinin rəsmiləşdirilməsi də beynəlxalq standartlar tətbiq edilməklə "bir pəncərə" prinsipinə uyğun şəkildə həyata keçirilir. Gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması məqsədilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsində "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemləri tətbiq olunur. Xarici iqtisadi fəaliyyət iştirakçısı sənədlərini gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib və təqdim etdiyi təqdirdə rəsmiləşdirmə prosesi 5-10 dəqiqə ərzində başa çatdırılır.

Naxçıvan gömrüyü muxtar respublikamızın iqtisadi mənafeyini və təhlükəsizliyini etibarlı şəkildə qoruyur. Dövlət büdcəsinin formalaşmasında gömrük orqanlarının rolu artır, gömrük işinin iqtisadi göstəriciləri yüksəlir. Hər il dövlət büdcəsinin formalaşdırılması məqsədilə müəyyən olunmuş proqnoz-tapşırıq artıqlaması ilə yerinə yetirilir.

Dövlət Gömrük Komitəsi, eyni zamanda hüquq-mühafizə orqanı olaraq əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi ilə qaçaqmalçılıq və digər hüquqpozma hallarına qarşı mübarizənin gücləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirir. Bu məqsədlə ən mütərəqqi üsullardan istifadə olunur, kinoloji xidmətin keyfiyyəti yüksəldilir, digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət təmin olunur. Gömrük xidmətində hədəflərin idarə olunması sistemi, müasir texnika və avadanlıqlarla təchiz edilən mobil qruplar fəaliyyət göstərir. Bu sahədə görülən qabaqlayıcı tədbirlərin nəticəsi olaraq son illər hüquqpozma faktlarının aşkar olunmasında artan dinamika müşahidə edilir. 2017-ci ilin iyun ayında Şahtaxtı sərhəd-keçid məntəqəsində muxtar respublika üzərindən tranzit hərəkət edən yük nəqliyyat vasitəsindən 94 kiloqrama yaxın narkotik vasitə – heroin aşkarlanması Naxçıvan gömrükçülərinin transmilli cinayətkarlığa qarşı mübarizə sahəsində böyük nailiyyətidir.

Gömrük orqanlarının fəaliyyətində prioritet istiqamətlərdən biri də daxili bazarın qorunmasıdır. Bu sahədə görülən işlər xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, o cümlədən ixrac potensialının artmasına da əlavə stimul verir. Gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət olunur. Keyfiyyət göstəricilərinin təyini ilə bağlı məhsullardan alınan prob və nümunələrin ekspertizası həyata keçirilir.

Son illərdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərir. Naxçıvan Muxtar Respublikası dünyanın 63 ölkəsi ilə ticarət əməliyyatları aparır. Xarici ticarət dövriyyəsində ixrac əməliyyatlarının həyata keçirildiyi ölkələrin miqyasının ilbəil genişlənməsi müşahidə olunan mühüm yeniliklərdəndir. Qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri regionda ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir. Ötən ilin may ayında Naxçıvan şəhərində Azərbaycan və Türkiyə Gömrük xidmətlərinin əməkdaşları arasında hüquqpozmalara qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi mövzusunda işgüzar görüşün, iyun ayında GUAM ölkələrinin Ticarətə və Nəqletməyə yardım layihəsinin Rəhbəredici Komitəsinin 26-cı iclasının, iyul ayında Urmiya şəhərində İran-Azərbaycan gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşünün keçirilməsinin mühüm əhəmiyyəti olmuşdur.

*Gömrük işi sahəsində muxtar respublikamızda yaradılan hərtərəfli şərait qarşıya qoyulmuş vəzifələrin bundan sonra da uğurla icra olunmasına imkan verəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Nəqliyyat sektorunun inkişafı Naxçıvanın tranzit əlaqələrini möhkəmləndirir

***Muxtar respublikamızda yol-nəqliyyat infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasında ölkə başçısı cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar mühüm rol oynayıb.***

Belə ki, dövlət başçısının "Naxçıvan Muxtar Respublikasının Culfa və Kəngərli rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2011-ci il 2 sentyabr tarixli Sərəncamına əsasən Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən müvafiq yol yenidən qurulub.

Muxtar respublikamızın dünya iqtisadiyyatına inteqrasiya etməsi və xarici ticarət əlaqələrinin ildən-ilə genişlənməsi yol-nəqliyyat infrastrukturunun da müasir dövrün tələblərinə uyğun qurulmasını təmin edir. Qeyd edək ki, Naxçıvanda beynəlxalq yük və sərnişin daşımalarının həyata keçirilməsində 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək və 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları böyük əhəmiyyət daşıyır. Muxtar respublikanın bir sərhəd-buraxılış məntəqəsindən digərinədək uzanan bu magistral avtomobil yolu qədim İpək Yolunun bir qolu üzərində yerləşməklə yanaşı, həm də Naxçıvanı qardaş Türkiyə və Avropa ölkələri ilə birləşdirən mühüm tranzit dəhlizidir. Eyni zamanda bu tranzit dəhlizə muxtar respublikanın digər keçid qapısı olan Şahtaxtı sərhəd-buraxılış məntəqəsinə gedən avtomobil yolu da birləşir. Bu da, ümumilikdə, muxtar respublika ərazisində beynəlxalq nəqliyyat hərəkətində intensivliyi təmin edir.

Ötən dövrdə Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir Avtobus Parkının istifadəyə verilməsi, Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal komplekslərinin inşa olunması Naxçıvanın qonşu ölkələrlə sərnişindaşıma xidmətinin yaxşılaşdırılmasına da öz töhfəsini verib. 2017-ci ildə beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət daha da gücləndirilmiş, Türkiyə Respublikasının "Metro" və "İğdırlı" turizm şirkətləri ilə bağlanmış müqaviləyə əsasən Türkiyə Respublikasının İqdır şəhərinə avtobus marşrutu açılmışdır. Eyni zamanda Naxçıvan-Bakı-Naxçıvan, Naxçıvan-Urmiya və Naxçıvan-Təbriz istiqamətlərində avtobus marşrutlarının fəaliyyətləri davam etdirilmiş, Naxçıvan-Ərzurum marşrutu fəaliyyətə başlamışdır. Bu dövrdə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 20 min 685, Bakıdan Naxçıvana isə 20 min 964 sərnişin daşınmışdır.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə muxtar respublikanın hava nəqliyyatı sistemi də müasir dövrün tələblərinə uyğun yenidən qurulmuşdur. Ötən dövrdə Naxçıvan hava limanı beynəlxalq status qazanmış, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, təyyarə uçuşlarının təhlükəsizliyinin tam təmin edilməsi məqsədilə Şərq və Qərb terminalları istifadəyə verilmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, nəticədə aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatmışdır. Hava limanında həyata keçirilən sərnişin və yükdaşıma xidmətləri zamanı aviasiya təhlükəsizliyi, beynəlxalq standartlar və tövsiyə olunan tələblər əsas iş meyarı kimi diqqətdə saxlanılmışdır. 2017-ci il ərzində yerli hava xətləri ilə 287 min 790 sərnişin, 4 milyon 818 min 480 kiloqram baqaj və 35 min 310 kiloqram poçt daşınmışdır. Beynəlxalq daşımalarda Naxçıvan-İstanbul istiqamətində 3 min 852 nəfər sərnişin və 54 min 570 kiloqram baqaj, Naxçıvan-Moskva istiqamətində isə 4 min 240 nəfər sərnişin və 57 min 870 kiloqram baqaj daşınmışdır.



Muxtar respublikanın yol-nəqliyyat infrastrukturunda dəmir yolu nəqliyyatının da öz rolu var. Son illər bu sahənin inkişafı üçün mühüm işlər görülmüş, kompleks tədbirlər həyata keçirilmişdir. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 71 min 70 ton müxtəlif təyinatlı yüklər daşınmışdır. Türkmənistan Respublikasından isə muxtar respublikaya 69 vaqon, 4400,6 ton gübrə gətirilmişdir. Muxtar respublikanın tranzit əlaqələrinə öz töhfəsini verən Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarı vasitəsilə isə ötən il 1936 nəfər sərnişinin gediş-gəlişi təmin olunmuşdur.

Ümumilikdə, ötən il muxtar respublikanın nəqliyyat sektorunda 2016-cı illə müqayisədə yük daşınması 1,5 faiz, sərnişin daşınması 1,8 faiz artmışdır. Yük və sərnişin daşınmasından, bütövlükdə, 55 milyon 924 min 500 manat gəlir əldə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 3,9 faiz çoxdur.

Bəli, Naxçıvanda nəqliyyat sektorunun inkişafı onun tranzit əlaqələrini ildən-ilə daha da genişləndirir. Ötən dövrdə həyata keçirilən tədbirlər nəticəsində bu gün Naxçıvanın regionun ən böyük dövlətləri olan Rusiya, Türkiyə, İranla, eyni zamanda Gürcüstanla birbaşa nəqliyyat əlaqələri var. Qarşıya qoyulmuş hədəflər gələcəkdə bu nəqliyyat əlaqələrinin daha da genişləndirilməsini nəzərdə tutur. Bilinən odur ki, ən yaxın tarixdə Ermənistan tərəfindən nəqliyyat blokadasına alınan Naxçıvan bu gün düşmənin özü üçün izolyasiya divarına çevrilib. Muxtar respublikanın nəqliyyat sektorunun davamlı inkişafı isə bu izolyasiyanı gücləndirməklə yanaşı, Naxçıvanın tranzit əlaqələrini də möhkəmləndirəcək.

**Səbuhi HƏSƏNOV**

## Az pulla böyük sərvət əldə etmək istəyirsənsə, kitab al

***Müdriklərin sərlövhəyə çıxardığımız bu kəlamından da göründüyü kimi, kitablar insanların biliklərinin artmasına səbəb olan, onlara həyatda uğurlar qazandıran başlıca meyar, əsas vasitədir. Fransız yazıçısı və filosofu Albert Camus əbəs yerə deməmişdi: "Başımızı qoyacaq bir yerimiz və kitablarımız varsa, bizə lazım olan hər şey var deməkdir".***



Həqiqətən də, insan çoxlu mütaliə sayəsində mənəvi kamilliyə ucalır, dünyagörüşü dəyişir, xarakterindəki mənfilikləri aşkar edib, onları aradan qaldırmaq üçün səy göstərir. Kitabın faydaları sayılmaqla bitməz. Çox təəssüf ki, son zamanlar, xüsusən də biz gənclər arasında mütaliəyə maraq hədsiz dərəcədə azalıb. Avtobuslarda, dayanacaqlarda təsadüfən kitab oxuyan birini görə bilərsiz. İnsanlarda kitab oxumaq vərdişlərinin aşağı səviyyədə olması, vaxtlarının azlığından şikayətlənmələri, boş zamanlarını isə kompüter və ya mobil telefonlara sərf etmələri, tələbələrin dərslərinin "çox" olması və başqa səbəblərdən bu gün mütaliəyə olan maraq xeyli azalıb. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı olduqca əhəmiyyətli və zəruridir. Bəs yeniyetmə və gənc nəsildə mütaliəyə maraq necə yaradıla bilər?

İlk olaraq qeyd edək ki, kitaba maraq insanlara uşaq vaxtından aşılanmalıdır. Müasir dövrdə isə bunu ciddi yanaşılmır. Belə ki, əgər 3-4 yaşında olan övladı durmadan ağlayır, diqqət tələb edirsə, ana düşünmədən uşağı televizor ekranının qarşısında əyləşdirir, yaxud ələ mobil telefon verir. Bu kimi halları "XXI əsrin bəlası" adlandıra bilərik. Halbuki azyaşlı uşaqlar üçün yüzlərlə nağıl, hekayə kitabları vardır. Məhz bu kitablardan istifadə edərək balacaları sakitləşdirmək mümkündür. Hələ uşaqkən kitabla olan bu ilkin tanışlıq sonradan insanı ömürboyu müşayiət edər, elm və təhsilə marağın təməlini qoymuş olar. İnsanları mütaliəyə cəlb etmək üçün kitab mağazalarının, oxu zallarının da sayının artırılması da effektli üsuldur. Naxçıvan şəhərində bu baxımdan səmərəli tədbirlər görülmüşdür. Şəhərdə hazırda üç böyük kitabxana, ona yaxın kitab mağazası və bir böyük kitab evi mövcuddur. Naxçıvan sakinlərinin mütaliyə marağı, kitablara olan tələbat barədə araşdırma aparmaq üçün bu obyektlərdən ikisində olduq.

2014-cü il noyabr ayının 23-də fəaliyyətə başlayan "Möminə Xatın" adlı kitab-kafe Naxçıvanda bu formatda yaradılan ilk məkandır. Kafe daha çox gəncləri bədii kitablar oxumağa sövq etmək məqsədilə açılmışdır. Bura gələnlər limitsiz, istənilən kitabı oxuya və ya kirayə götürə bilərlər. Oxuculara həm də zövqə görə çay, kofe, şirniyyat, dondurma, sərin içkilər də təqdim olunur. Burada asudə vaxtın səmərəli keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitab-kafe hay-küylü şəhər həyatından, şəxsi problemlərdən qısa müddət də olsa, uzaqlaşıb kitabların heyrətamiz, rəngarəng dünyasına qərq olmaq, dəyərli vaxt keçirmək üçün ən ideal məkandır. Kafenin müdiri Sevinc Abbasova bizimlə söhbətində bildirdi: "Sevindirici haldır ki, ötən illərə nisbətən bu il kafeyə gələnlərin sayı daha çoxdur, bundan sonra daha da çoxalacağını ümid edirəm". Biz də kitab-kafenin uzunömürlü olacağına, gənclərin mənəvi-əxlaqi tərbiyəsinə öz töhfəsini verəcəyinə inanırıq.

"Zirvə" kitab evi Naxçıvan şəhərində ən çox kitab satılan mağaza kimi tanınır. Burada 2500-ə yaxın, hər yaşa və zövqə uyğun bədii kitab vardır. Bu kitablar həm satılır, həm də kirayə verilir. Kirayə kitablar götürməyə daha çox tələbələr üstünlük verirlər. Satıcıdan öyrəndik ki, əsasən, 20-35 yaş arası insanlar bədii ədəbiyyata maraq göstərirlər.

Orta məktəb şagirdlərindən kitab almaq istəyənlər çox azdır. Daha çox müraciət olunan ədəbiyyatlar klassik və müasir dünya, o cümlədən müasir türk ədəbiyyatıdır. Klassik dünya ədəbiyyatından çox satılan kitablar Lev Tolstoyun, Ernest Heminqueyin, Frans Kafkanın, Teodor Drayzerin, Aleksandr Puşkinin, Aligyeri Dantenin, Fyodor Dostoyevskinin, Viktor Hüqonun, müasir türk ədəbiyyatından Miraç Çağrı Aktaşın, Ahmet Batmanın, Kahraman Tazeoğlunun, müasir dünya ədəbiyyatından isə Jojo Moyesin, Xalid Hüseyninin, Aqata Kristinin və digərlərinin əsərləridir.

Onu da qeyd edək ki, gənclər arasında qadınlar romantik ədəbiyyat nümunələrinə, kişilər isə dedektiv janrda yazılmış əsərlərə maraq göstərirlər. Bəzi insanlar müasir Azərbaycan ədəbiyyatına, daha çox Çingiz Abdullayevin, Elxan Elatlının, Rövşən Abdullaoğlunun kitablarına müraciət edirlər. Bütün bunlarla yanaşı, mağazada azyaşlı uşaqların mütaliəsi üçün də müxtəlif kitablar mövcuddur. "Günbəgün kitab alıcılarının sayı artmaqdadır", – deyən mağazanın müdiri bildirir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı gənclərdə mütaliəyə maraq oyadıb. Bu da, öz növbəsində, alıcıların sayının artmasına səbəb olub. Bu artım, şübhəsiz, qürurverici haldır. Bəlli olur ki, artıq insanlar Nəcəf bəy Vəzirovun "Kitabsız ömrün nə mənası var" ideyasına dəyər verərək kitabların əhəmiyyətinin daha dərindən fərqinə varırlar.

Qeydlərimi məşhur İran sosioloqu Əli Şəriətinin sözləri ilə bitirmək istəyirəm: "Oxuyun! Mürəkkəbin axmadığı yerdə qan axır!"

**Nəzrin MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***

*İdman*

## Culfa rayonunda boccia bölməsi fəaliyyətə başlayıb



Muxtar respublikada idmanın inkişafı üçün yaradılan şərait məhdud fiziki imkanlı uşaqların da idmana maraqlarının artmasına səbəb olub. Onların cəmiyyətə inteqrasiyası məqsədilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının 2016-cı ilin may ayından etibarən boccia idman növü üzrə bölmələri fəaliyyət göstərir. Bölmələrdən biri də Culfa rayonunda yaradılıb.

Artıq Culfa şəhər 3 nömrəli tam orta məktəbdə boccia idman bölməsinin ilk məşqi keçirilib. Bölməyə ilkin olaraq 6 sağlamlıq imkanı məhdud uşaq cəlb olunub. Məşqləri aparmaq üçün məşqçi-müəllim müəyyən edilib.

Onu da qeyd edək ki, muxtar respublikada bu idman növünə diqqət gündən-günə artmaqdadır. Belə ki, artıq Naxçıvan Uşaq Bərpa Mərkəzinin idman zalında məşqlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Boccia paralimpiya idman növündə idmançılardan fiziki güclə bərabər zehni əmək də (fikrin və diqqətin bir mərkəzə cəmlənməsi) tələb olunduğundan, bu idman növü həm də reabilitasiya xarakterlidir.

İlk dəfə 2016-cı ildə Naxçıvan Uşaq Bərpa Mərkəzinin idman zalında sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə boccia idman növü üzrə muxtar respublika yarışı, daha sonra isə 2017-ci ildə Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Culfa şəhər 3 nömrəli tam orta məktəbin idman zalında muxtar respublika birinciliyi keçirilib. Məşqlərin səmərəliliyinin artırılması məqsədilə federasiya tərəfindən muxtar respublikaya Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq paralimpiya şöbəsinin boccia idman növü üzrə baş məşqçisi dəvət olunub.

Yeni yaranmasına baxmayaraq, bölmənin uğurları da çoxdur. Belə ki, 2016-cı ildə keçirilən ikinci Respublika uşaq paralimpiya idman oyunlarında muxtar respublikanı təmsil edən iki paralimpiyaçı müvəffəqiyyətlə çıxış edərək 1-ci və 3-cü yerlərə, 2017-ci ildə üçüncü uşaq paralimpiya idman oyunlarında muxtar respublikamızı boccia üzrə təmsil edən 3 paralimpiyaçıdan ikisi 2-ci, biri isə 3-cü yerə layiq görülüblər. 2017-ci ildə böyüklər arasında 4-cü respublika turnirində muxtar respublikamızı təmsil edən 1-ci qrup əlil Qafqaz Hüseynov 3-cü yerlə kifayətlənib.

## Muxtar respublika birinciliyinə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Atıcılıq Federasiyasının təşkilatçılığı ilə Naxçıvan Atıcılıq Mərkəzində atıcılığın tir növü üzrə muxtar respublika açıq birinciliyi keçirilib.

Muxtar respublikada bu idman növünün təbliği və kütləviliyinin artırılması, gənclər arasında döyüş qabiliyyətinin və müdafiə vərdişlərinin formalaşdırılması məqsədilə keçirilən yarışda 50-yə yaxın yeniyetmə və gənc mübarizə aparıb. Maraqlı idman mübarizəsinin yekununda Rəcəb Rəcəbov hədəfləri dəqiq nişan alaraq qalib adını qazanıb. İkinci və üçüncü pillədə isə müvafiq olaraq Ayaz Kətanov və Fərhad Allahverdiyev qərarlaşıblar.

Sonda yüksək nəticə göstərmiş idmançılar təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

*Sağlam həyat tərzi*

## İdmançının fiziki və psixoloji cəhətdən möhkəmlənməsində məşqçilərin rolu

***İdmançı üçün vacib olan şərtlərdən biri onun iradəsidir. Hər bir kəs idmanı sevə, hətta idmançı ola bilər, lakin peşəkar idmançı olmaq daha çox güc və dözümlülükdən başqa, xarakter tələb edir. Yarışlar, turnirlər öncəsi yaranan həyəcan və bu həyəcana qalib gəlmək isə hər idmançıya nəsib olmur. Fiziki və psixoloji çətinliklər onlarda bəzən gücə qalib gəlir. Hər iki amilin təsirindən bu, bəzi hallarda idmançıların təlim-məşq prosesindəki faydalı işinin məhsuldarlığına, yarışlarda çıxışlarına, rəqib qarşısında istədiyi performansı göstərə bilməsinə mane olur.***

Alimlərin araşdırmaları göstərir ki, belə hallar idmançının idman nəticəsinə təsir etməklə yanaşı, onun gələcəkdə bir insan kimi formalaşmasına da mənfi təsir göstərir. Bəs bu problemlərlə üzləşməmək üçün idmançı nə etməlidir?

Əvvəlcə onu qeyd edək ki, idman üzrə ekspertlərin ümumi rəyinə görə, ilk növbədə, məşqçi-müəllimlər təlim-tərbiyə işini düzgün qurmalıdırlar. Daha dəqiq desək, hər hansı idmançının əxlaqi-iradi hazırlığı vacib şərtlərdən biri olmalıdır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məşqçi-müəllimlərin fikirlərini bilmək, bu mənada, maraqlıdır.

Uzun illərdir, məşqçi kimi fəaliyyət göstərən, Naxçıvan Muxtar Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi Kamaləddin İsmayılov deyir ki, hər bir məşqçi yetirməsinin daxili aləmini bilməli, ona pedaqoji nöqteyi-nəzərdən yanaşma metodlarından istifadə etməlidir. Məşqçilər idmançılarla təlim-tərbiyə işini qurmaq üçün onlara fərdi metod və vərdişləri aşılamaqla bu prosesi təkmilləşdirməlidirlər. O dedi: "Bizim qrupda olan idmançılarla bu cür tədbirlər iki aydan bir keçirilir. Qrup halında olan idmançılar üçün keçirilən tədbirlər, əsasən, yaş fərqindən, onların hazırlığının və bacarığının səviyyəsindən, təlim-məşq prosesinin tədris cədvəlindən asılıdır və bunu biz tərtib edirik. Məktəbdənkənar təlim-tərbiyə işinin qurulması və həyata keçirilməsi də məşqçi-müəllimin üzərinə düşür. Belə ki, məşqlərdə, komplekslərdə, idman zallarında, təlim-məşq toplanışlarında və ya komanda (qrup) yarışlara başqa şəhərlərə dəvət aldıqda, idmançı vərdiş etdiyi şəraitdən, ailədən, məktəbdən, dostlarından uzaqlaşır. Belə hallarda məşqçi-müəllim yeganə rəhbər kimi təlim-tərbiyə işinin qurulması və həyata keçirilməsinə məsuliyyət daşıyır".

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini, məşqçi-müəllim Faiq İsgəndərovun fikrincə isə, idmançılarla daha çox mənəvi tərbiyə haqqında söhbətlər aparmaq lazımdır. İlk olaraq bu tədbirləri yerinə yetirmək üçün kompleks metodlardan istifadə edilməlidir. Çünki bu zaman idmançılar özlərini rahat hiss edir və yarışlara daha həvəslə hazırlaşırlar. Təbii ki, bu məqamda məşqçi-müəllimlər buna nəzarət etməli, işin gedişinə öz köməklərini göstərməlidirlər. Bu prosesdə o zaman uğur qazanılır ki, məşqçi-müəllim möhkəm, dəyanətli bir kollektiv yaradır, qələbə və məğlubiyyətin hər bir qrup üzvünün ümumi işi olduğunu izah edir.

Boks Federasiyasının sədr müavini, məşqçi-müəllim Məmmədcəfər Əliyev deyir ki, təlim-məşq toplanışları zamanı idmançının asudə vaxtı düzgün təşkil edilmədikdə idmançıda baş qaldıran psixoloji problemlər darıxma şəklində özünü büruzə verir. Bu hallara yol verməmək üçün məşqçi-müəllim qabaqcadan, şəraitdən asılı olaraq, vaxt bölgüsü aparmalıdır. O həm də təlim-məşq prosesinin intensivliyini artırmaq və effektli olmasına çalışmaqla, kollektivin asudə vaxtının təşkili üçün təlim-tərbiyə planı işləyib hazırlamalıdır. Təlim-məşq qruplarında idmançının iradi keyfiyyətləri formalaşmaqla, onun düşüncəsi də möhkəmləndirilməlidir. Bu dövrdə idmançıların hər birinə fərdi yanaşmaq şərtdir. Təkmilləşmə qruplarında əsas amil odur ki, komanda daxilində həmişə qarşılıqlı anlaşma olsun.

"Məşqçi-müəllim və idmançı arasındakı münasibət tələbkarlıq və qarşılıqlı hörmət əsasında qurulmalıdır". Bu fikirlər isə Karate-do Federasiyasının sədr müavini, məşqçi-müəllim Nəriman Quliyevə aiddir. Həmsöhbətim vurğulayır ki, bunların nəticəsi olaraq ustalığın artması yüksək nəticələrin əldə olunmasına gətirib çıxarır. Məşqçi artan fiziki yükə qarşı reaksiyanı müəyyən etmək üçün idmançı üzərində daha diqqətli müşahidə aparmalıdır. Hələ ilk məşqlərdən idmançılara ən vacib gigiyena vərdişlərini aşılamaq lazımdır. İdman formasının saxlanılması üçün qurulmuş iş rejiminə riayət edilməsi də əhəmiyyətlidir.

Bəs təlim-məşq prosesində idmançı zədələnərsə, nə edilməlidir? "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun həkimi Eldəniz Qurbanovun sözlərinə görə, zədələnmiş idmançının bərpa prosesi müəyyən olunmuş qaydalar əsasında aparılmalıdır. Bu zaman müxtəlif masaj növlərindən – hamamdan, saunadan, fizioterapiyalardan istifadə etmək lazımdır. Fizioterapevtik müalicələrin həkimin tövsiyəsi olmadan həyata keçirilməsi orqanizmə zərər verə bilər. Bərpa prosesini ixtisaslaşmış həkimlər aparmalıdırlar. Bu müalicələri çox apardıqda isə orqanizmdə mənfi dəyişikliklər baş verir. İdmançılar üçün hər seansda ancaq bir müalicə növü təbliğ edilə bilər ki, bu da həftədə 1 və ya 2 dəfə olur. Psixoloji bərpa isə idmançının çətin məşq prosesində, yarış zamanı onun orqanizminin fiziki yükə dözümlülüyünü, əsəbi-psixoloji anları bərpa etmək üçün istifadə olunan metoddur.

Həkimlərin araşdırması göstərir ki, idmançıya yarışqabağı eyni sözlər təkrar deyilirsə, bu, ona psixi təsir göstərəcəkdir. Ona görə də psixi təsir metodundan istifadə zamanı bu prosesi kompleks təsir metodunun da köməyi ilə qurmaq lazımdır. Əgər bərpa prosesi adi formada aparılarsa, məşqin səmərəsi azalar, idmançının fiziki hazırlığı isə zəifləyər.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Camalov Səlahət Mürsəl oğlunun adına olan JN-844A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Məmmədov Rəşad Arif oğlunun adına olan zabitin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 169